## Ümumi məlumat

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (ingiliscə adı – the Food and Agriculture Organization of the United Nations – FAO) 1945-ci ildə təsis edilmişdir və 194 üzv ölkə ilə fəaliyyət göstərən ixtisaslaşmış beynəlxalq təşkilatdır. Təşkilatın əsas missiyası aclıq, ərzaq çatışmazlığı və qidalanma problemlərinin aradan qaldırılması, eləcə də dayanıqlı kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyi və qida təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın təşviq edilməsidir.

Azərbaycan 1995-ci ildən FAO-nun üzvüdür. Ölkəmiz FAO ilə kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət sahələrində sıx əməkdaşlıq edir. Bu çərçivədə dayanıqlı kənd təsərrüfatı istehsalının inkişafı, qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, həmçinin beynəlxalq standartların tətbiqi üzrə birgə layihələr həyata keçirilir. FAO-nun Azərbaycanla əməkdaşlığı ölkədə ərzaq və qida təhlükəsizliyinin təmin edilməsinə, ixrac potensialının artırılmasına və innovativ yanaşmaların tətbiqinə xidmət edir.

Agentlik yarandığı dövrdən etibarən FAO ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirir. Qeyd edilən qurumla aşağıdakı layihələr üzrə bir sıra fəaliyyətlər həyata keçirilir.

- “Milli qida təhlükəsizliyi sistemlərinin təkmilləşdirilməsi və regional əməkdaşlıq” layihəsi
- Azərbaycan Respublikasının xırdabuynuzlu heyvanların taun xəstəliyindən (PPR-dan) azad statusunun alınması və dabaq xəstəliyinə görə peyvəndləmə tətbiq edilməklə azad zonanın yaradılması
- “Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması üçün Azərbaycan Respublikasına dəstək” layihəsi
- “Mərkəzi Asiya ölkələrində və Türkiyədə pestisidlərin dövriyyəsinin idarə edilməsi və davamlı üzvi çirkləndiricilərə aid edilən pestisidlərin zərərsizləşdirilməsi” layihəsi
- “Daha yaxşı qidalanma və daha təhlükəsiz qida üçün qida məhsullarının istehlakı məlumatları üzrə potensialın artırılması” layihəsi